NATO-nun Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay Gürcüstanda səfərdədir. O, sabah səhər saatlarında Gürcüstanın müdafiə naziri İrakli Alasaniya ilə görüşəcək və sonra Gürcüstanın yeni prezidentinin andiçmə mərasimində iştirak edəcək.

Qeyd edək ki, Georgi Marqvelaşvili “Gürcü Arzusu”nun namizədi kimi oktyabrın 27-də keçirilən prezident seçkilərində qələbə qazanıb. Sabah onun andiçmə mərasimi keçiriləcək. Mərasimdə iştirak etmək üçün Gürcüstana 53 ölkədən nümayəndələr gəlib.